**M.B.Nəzakət**

# Qatil və qəlb

Detektiv roman

QANUN NƏŞRİYYATI

# Mündəricat


Ön söz ........ 5
I ........ 6
II ........ 40
III ........ 48
IV ........ 58
V ........ 61
VI ........ 69
VII ........ 71
VIII ........ 74
IX ........ 77
X ........ 81
XI ........ 83
XII ........ 87
XIII ........ 91
XIV ........ 94
XV ........ 99
XVI ........ 102
XVII ........ 107
XVIII ........ 110
XIX ........ 112
XX ........ 115
XXI ........ 117
XXII ........ 119
XXIII ........ 123
XXIV ........ 126
XXV ........ 131
XXVI ........ 133
XXVII ........ 135
XXVIII ........ 137
XXIX ........ 140
XXX ........ 143



# Ön söz

Meşədə izsiz və dəlilsiz son dərəcədə qəddarlıqla qətlə yetirilmiş, hələ çiçəyi çırtlamamış bir qızın ölümündən, həyatın ən gözəl çağlarında, xəyalları olan, bacarıqlı və ağıllı rəssam qız, işinin peşəkarı inadkar bir detektiv və son dərəcə ağlasığmaz qəddarlığa malik psixopat cinayətkardan bəhs olunur.

Əsər rəssam qız Əslinin, onun babası ilə maraqlı və şən söhbəti ilə başlayır. Əsərdə həm romantika, həm də dram motivləri hökm sürür.

Əsəri oxuyarkən həm ailədaxili isti və mehriban mühitlə, eyni zamanda, şiddətli psixopatın işlədiyi cinayətlə və cinayətin üstünü açıb cinayətkarın kimliyini axtaran detektivlə tanış olacaqsınız.

Romanda məhəbbət motivləri üstünlük təşkil etsə də, cinayət və cinayətkarın kimliyinin axtarışı üzərində qurulub.

# I

Səhərin sərin, təmiz mehinin saçlarıma sığal çəkməsini çox sevirəm. Hər səhər eyvanda bir neçə dəqiqə sərin küləyin, təmiz havanın qəlbinə dolması məni günə başlamaq üçün çox gözəl motivasiya edir. Ən əsası da yaz fəslində. Məncə, yaz fəslində təkcə təbiət yox, elə insanda yenidən canlanır, təzələnir.

İçəri keçdim. Babamla mən səhər erkən oyananlardanıq. Enerjinin bol olduğu, insanın özünü gümrah hiss etdiyi saatlar. Pürrəngi çay dəmləyib babamla üzbəüz oturduq. Babam rəhmətlik nənəmlə eşq macərasını sayını unutduğum, artıq neçənci dəfədir ki, mənə danışır. Lakin təmiz, saf, gözəl eşq hekayəsini sonsuz sayda dinləyərəm. Saf məhəbbət qızıldan qiymətli yadigardır.

– Hə, baba qurban. Harada qalmışdıq?

– Can, baba. Nənəmlə dəniz kənarında gəzirdiniz. Orda qalmışdıq.

– Hə, gözəl nəvəm. Qulaq as. O vaxtlar Xəzər dənizi bu qədər çirklənməmişdi. Suyu, havası tərtəmiz idi. Biz nənənlə tez-tez gedib gəzərdik dəniz kənarında.

– O qədər deyib gülərdik, əldən düşənədək. Heç ac olmağımız yada düşməzdi. Baxmayaraq ki, müharibə və aclıq idi. Çörək tapmaq olmurdu.

– Baba, nə gözəl, birgə bu qədər deyib güləcək, danışacaq nələrsə tapırsızmış. Lap əsl dost kimi.

– Bəs nə, qızım. Sevgi elə dost olmaqdır. Əgər dost ola bildinsə yoldaşınla, deməli, sevginiz də əbədi məhəbbət olacaq.

– Düzdür, baba.

– Qızım, biz heç nədən də olsa, deyib-gülməyə, danışmağa nəsə tapırdıq. Tapmasaq belə, yaradırdıq. Rəhmətlik məni fani dünyada tək qoyana qədər bizim söhbətimiz qurtarmadı.

– Can baba, lap kövrəldim. Haradadır indi sizin kimi saf sevgi ilə məhəbbət yaşayan. Qızları deyə bilmərəm, onlar saf olur. Amma oğlanların əksəriyyəti qıza sadəcə müəyyən məqsədlərlə baxırlar. Sevgi, məhəbbət artıq mif olub.

– Bilirəm, qızım. İndiki cavanlar heç 5 il dözmür, ayrılır. 5 ilə 30 ilin ağır söz-söhbətin edirlər.

– Hə, baba, düzdür.

– Bilirsən nədəndir, qızım?

– Həə, bilirəm, baba. Hamısı körpə vaxtı ana südü əvəzi yedirilən süni qidalardandır.

– Bəs necə. Qızım yaman güldün.

– Yox, baba. Yadıma düşənə güldüm.

– Elə olsun, dəcəl nəvəm.

– Can, baba.

Babamla şirin söhbətimiz bitdikdən sonra otağıma yollandım. Ən sevdiyim mahnı Delin 70’s sədaları altın-

da universitet üçün paltar seçimi edirəm. Hər zamankı kimi qəhvəyi tonlarda geyim kombinə edirəm. Üstünə qəhvəyi rəngli v yaxa t-shirt, alt isə krem rəngli cins şalvar. Anamın mənim üçün toxuduğu rəngarəng çantama ən sevdiyim kitabım Ceyn Ostinin "Qürur və qərəz"i qoyduqdan sonra evdən çıxıram. Rəssamlıq Akademiyası üzrə 3-cü ilimə keçirəm. Çox sevirəm portretlər çəkməyi. Gələcəkdə öz rəsmlərimdən ibarət sərgi keçirməyi arzulayıram. Həm də öz vətənimdə. Öz yurdumun məşhur rəssamı olmaq istəyirəm. Bunun üçün akademiyada çox çalışıram. Müəllimlərim tərəfindən təqdir edilirəm. Dediklərinə görə, bu qayda ilə getsəm, gələcəyin məşhur sərgilərindən birinin sahibi ola bilərəm.

– Salam, Əsli. Necəsən?

– Salam, Səmra. Çox sağ ol, can, yaxşıyam. Sən necəsən?

– Mən elə də yaxşı deyiləm.

– Nə olub?

– Keçən həftə 301-ci qrupda axtarışa verilən qız var idi. Xatırladın?

– Reyhan? Nə oldu tapıldı?

– Hə, o. Tapıldı. Amma cansız bədəni tapıldı.

– Nə danışırsan, Səmra?

– Hə, mən də şok oldum. Özü də çox vahiməli nüans var.

– Necə yəni vahiməli? Bundan vahiməli nə ola bilər?

– Qızın cəsədi tapılanda ürəyi yox idi. Qətlə yetirən ürəyini çıxarıb. Biri onu çıxarıbsa, məncə, elə öldürəndir.

– İlahi, ay qız. Sən nələr danışırsan? Bu, gerçək ola bilməz.

– Çox təəssüf ki, bu, gerçəkdir.

– İndi ailəsi kim bilir nələr yaşayır. Qızını itirmək, həm də bu cürə itirmək çox dəhşətlidir.

– Hə, çox.

– İndi bu məsələ haqqında nə deyirlər?

– Artıq işə detektiv qarışıb.

– Səncə, kim etmiş ola bilər bu vəhşiliyi, alçaqlığı?

– Bilmirəm. Amma onu bilirəm ki, o cani tapılmadığı müddətcə hər kəs təhlükədədir.

– Reyhan çox gözəl və sakit qız idi. Özü də çox istedadlı idi.

– Sevgilisi var idi?

– Yox, mən bildiyim qədər çox tənha qız idi. Dostu da yox idi. Dərsə sakit gəlib-gedirdi. Heç kimlə yaxın deyildi.

– Ailəsi rayonda qalırdı?

– Hə, rayondan gəlmişdi, təhsil almağa. Kirayədə qaldığı qızlar onun haqqında nəsə bilməmiş olmazlar.

– Elə məsələnin qəribə tərəfi odur ki, polislər soruşublar dediklərinə görə, o qədər tənha qız imiş ki, onlarla belə kəlmə kəsmirmiş, dərsdən evə gəlib otağına keçərmiş. Heç qızlara qaynayıb-qarışmırmış.

– Ümid edirəm, tezliklə məsələ həll olunar.

– Hə.

– Yaxşı, gedək, dərs başlayır artıq.

Bu xəbər məni o qədər dərindən sarsıtdı ki, bütün günüm ağır keçdi. Kim bilir, nə ağrılar çəkib o qız. Bu vəhşilik niyə? Axı niyə insan bu qədər vəhşi ola bilər. Nədir buna vadar edən. Ya bu insanda demək olmaz cani psixopatdır, ya da dəli. Axır insan deyil.

– Əsli, xoş gəldin qızım.

– Xoş gördük, ana.

– Əllərini yu, gəl, sən də süfrəyə otur. Yemək yeyirik.

– Yox, ana. Bu gün məni üzrlü sayın. İştaham yoxdur.

– Niyə qızım, bir problem var?

– Yox, ana. Sadəcə pis gün keçirmişəm.

– Mənimlə bölüşmək istəyirsən?

– Bəlkə, sonra, amma indi yox. Hal-hazırda ehtiyacım olan dərin bir yuxudur.

– Yaxşı, qızım, get, yatıb dincəl.

Otağıma keçib pijamalarımı geyinib qulaqlığımda ən sevdiyim mahnını qoşub dərin yuxuya getdim. Qəribə səslənsə də, bu mənim üçün dünyada ən hüzurlu prosesdir. Musiqi ilə yatmaq.

Günəşin parlaq şüaları gözlərimi açmağa məcbur edənə qədər çox şirin və dərin yuxuda idim. Amma bununla yetmədi, zəngli saat tam 6-da öz işini gördü.

– Sabahın xeyir, baba

– Sabahın xeyir, gözəl qızım. Necə oldun. Yaxşısan? Dünən çox yorğun idin.

– Yaxşıyam. Yuxu bütün yorğunluğumu alıb.

– Əla. Gəl, otur, pürrəngi çay içək.

– Dərhal armudu stəkana süzüb gətirirəm.

Hər zaman olduğu kimi, babamla şirin söhbətimizdən sonra hazırlaşıb universitetə yollandım. Metroda bir az kitab oxumaq istədim. Çantamdan kitabı götürəcəkdim ki, bir adamla möhkəm toqquşdum. Çiynim çox pis əzildi. Başımı qaldırıb gördüyüm gözlər məni olduğum yerdə heykələ çevirdi. Həyatımda bu cür gözlər görmədiyimə görə cazibəsinə qapılmadım desəm, saxtakarlıq olar. İlahi, sən necə şah əsərlər yaradırsan. Rəssam ol-